Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
" İctimai və dövlət maraqlarının müdafiəsi"

# "Anadangəlmə mollanəsrəddinçi"

## Şura hökuməti Əbdürrəhim bəy Haqverdiyevə də ögey münasibət bəsləyirdi

**1989-cu ilin sonları idi. Milli mətbuatımızın salnaməçisi Qulam Məmmədli ilə həmişəki kimi yenə də M.F.Axundzadə adına milli kitabxanada görüşdüm. Mollanəsrəddinçilər haqqında məqalə yazmalı idim. Bu dəfə də Qulam müəllim köməyini əsirgəmədi. Bir neçə il təmasda olduğu, bir yerdə işlədiyi mollanəsrəddinçilərdən danışdı. Söhbət Əbdürrəhim bəy Haqverdiyevdən düşəndə dedi: "Haqverdiyev ucaboy, xoşsima, xalq ədəbiyyatını, adət-ənənələrini çox yaxşı bilən, hazırcavab, çox məzəli söhbətləri olan birisi idi. Yaman məzəli lətifələr bilirdi. Hərdən bu qədər lətifəni necə yadında saxladığına heyrət edirdim. Bir sözlə, Əbdürrəhim bəy anadangəlmə mollanəsrəddinçi idi".**

Bu məqaləmdə "anadangəlmə mollanəsrəddinçi"nin və Mirzə Fətəli məktəbinin son və ən parlaq nümayəndələrindən olan Haqverdiyevin zəngin, çoxşaxəli, qiymətli ədəbi irsindən bəhs etmək fikrində deyiləm. Çünki bu haqda ədəbiyyatşünaslarımız yetərincə qiymətli əsərlər yazmış, fikirlər söyləmişdir. Mən bu məqaləmdə sağlığında bir yubileyi, fəxri adı ona qıymayan sovetlərin münasibətindən bəhs etmək fikrindəyəm.

Əbdürrəhim bəy Haqverdiyev Şuşa ədəbi mühitində böyümüş, Peterburq təhsili almış, Azərbaycanda mətbuatın, ədəbiyyatın, teatrın inkişafında çox böyük xidmətləri olmuş bir ictimai xadim, istedadlı qələm əhli idi. "Molla Nəsrəddin" ədəbi məktəbinin formalaşmasında "C.Məmmədquluzadə və M.Ə.Sabirlə bir sırada Ə.Haqverdiyevin də rolu çox böyükdür" söyləyən alimlərimiz haqlıdırlar.

### KİM İDİ HAQVERDİYEV?

1870-ci ilin may ayında Şuşada Əsəd bəyin ailəsində anadan olan Əbdürrəhim bəyin atası Şuşa qəza dəftərxanasında işləyib və çox erkən dünyasını dəyişib. Əbdürrəhim bəy bir neçə il əmisi Əbdülkərim bəyin və atalığı Həsənəli bəyin himayəsində böyüyür, təhsil alır. Atalığından rus dilini yaxşı öyrənən Əbdürrəhim bəy əvvəl Şuşa şəhər məktəbində, sonra Şuşa realnı məktəbində təhsilini davam etdirir. O, bu məktəbin dördüncü sinfində oxuyarkən Mirzə Fətəlinin komediyalarına oxşar əsərlər yazmağa başlayır.

1890-cı ildə Şuşa realnı məktəbini başa vuran Ədürrəhim bəy Tiflis realnı məktəbinə daxil olur. Burada dram teatrı haqqında mükəmməl bilgi alan Əbdürrəhim bəy daha yaxşı təhsilə yiyələnmək üçün 1891-ci ildə Peterburqa yollanır. Peterburq Universitetinin Şərq fakültəsinə daxil olur. Əbdürrəhim bəyin boş vaxtlarında daha çox üz tutduğu yer Peterburq şəhər teatrı olur. "Bəzən həftədə iki-üç dəfə o teatra gedərdim. Bu teatrın təsiri altında 1892-ci ildə "Yeyərsən qaz ətini, görərsən ləzzətini" komediyasını yazdım" - deyə illər sonra o günləri xoşluqla xatırlardı.

1899-cu ildə təhsilini başa vurub vətənə dönən Haqverdiyev bir neçə il Şuşada və Bakıda pedaqoji fəaliyyətlə məşğul olur.

Ə.Haqverdiyevin "Molla Nəsrəddin"ə gəlişi jurnalın nəşrə başladığı 1906-cı ilin sonlarına təsadüf edir. İlk olaraq "Molla Nəsrəddin"də felyetonları və məzhəkələri ilə tanınan ədib "Marallarım" və "Xortdanın cəhənnəm məktubları" əsərlərini çap etdirir. Beləliklə, 1906-07-ci ildən onun hekayəçilik fəaliyyəti başlayır.

Ədəbiyyatşünas alim M.C.Paşayev yazırdı: "Molla Nəsrəddin"in nəşrindən sonra Haqverdiyevin yaradıcılığının ikinci dövrü başlayır". Xoşbəxtlikdən bu dövr uğurlu olur. Bəlkə də bu uğura səbəb onun dilinin sadəliyi, axıcılığı idi. XX əsr ədiblərimiz arasında Mirzə Cəlildən sonra ən gözəl bədii dil Haqverdiyevin dilidir.

### ONA ŞUŞADA "ŞƏBEHGƏRDAN" DEYƏRDİLƏR

Üzeyir bəyin qardaşı, bəstəkar Zülfüqar Hacıbəyli xatirələrində yazırdı: "Əbdürrəhim bəyə Şuşada "Şəbehgərdan" adı qoymuşlar. Bu, görkəmli dramaturqun teatra olan böyük məhəbbəti ilə bağlı idi". Bu məhəbbətlə o gah Bakıda, Tiflisdə, gah da Şuşada tamaşaya qoyulan əsərlərə rejissorluq edərdi. Bir dəfə tələbələrindən birinə arvad paltarı geyindirib səhnəyə çıxardığı üçün onu yaman məzəmmət edirlər".



Görkəmli yazıçı Abdulla Şaiq "Xatirələrim"də o günləri belə xatırlayırdı: "1896-cı ildə Şuşa şəhəri müəllimlərinin və Nikolayevski məktəbin müəllim və tələbələrinin iştirakı ilə "Dağılan tifaq" faciəsi tamaşaya qoyulur. Tamaşanın rejissorluğunu Haqverdiyev özü edirdi. Rollar müəllimlər və tələbələr arasında paylanır. Tələbə Mirzəyev Rza qumarda uduzan bəyin arvadının rolunu oynayırdı. Tamaşanın sabahı arvad rolunu oynayan Rzanın anası məktəbə gəlib hay-küy qoparmış, "Hanı o Şəbehgərdan? Mənim oğluma arvad paltarı geyindirib xalqın qabağına çıxardan o Əbdürrəhim hardadır? Onun başına bir oyun açım ki..." - deyə Haqverdiyevi hədələmişdir".

Tiflisdə və Bakıda mətbuat, teatr sahəsində çalışan Ə.Haqverdiyev sövet dövründə daha çox pedaqoji fəaliyyətlə məşğul olub. 1921-ci ildən Azərbaycan Dövlət Universitetində (indiki BDU-da) "Azərbaycan ədəbiyyatı tarixi"ni tədris edib. "Sosialist demokratiyasının parlaq qələbəsini" "görməyən" və təbliğ etməyən mollanəsrəddinçilər kimi o da sevimli jurnalından pərən-pərən düşür.

"Molla Nəsrəddin" jurnalını islah etməli və bu günün tələblərinə cavab verə biləcək şəklə salmalıyız" - deyən "tənqidçilərimiz" ona "Allahsız" adı verilməsini və ətrafına proletar yazarları toplamağı məsləhət görürlər. "Molla Nəsrəddin"ə qarşı olan bu haqsızlıq "otuz beş il mütəmadi bir çalışma ilə" sözünü deyən, "zülüm və işgəncəyə qarşı üsyan edən bir qələm əhli" üçün çox ağır idi.

### BAŞIBƏLALI YUBİLEY

1927-ci ilin 4 fevralında Tiflisdə Ə.Haqverdiyevin ədəbi yaradıcılığının 35 ili yüksək səviyyədə qeyd edilir. Xoş təəssüratlarla Bakıya gələn ədibi ilk olaraq maarif naziri Mustafa Quliyev qarşılayır və ilk sualı bu olur: "Nə üçün Azərbaycana xəyanət etdin?"

Ədəbiyyatşünas alim, ədibin yaxın dostu Əziz Şərif yazırdı: "Ə.Haqverdiyevin Tiflisdə keçirilmiş yubileyi Bakının rəsmi idarələrində qısqançlıqdan doğan açıq narazılığa və dedi-qoduya səbəb olmuşdu. Nə üçün Azərbaycan yazıçılarının yubileyi Bakıda deyil, Tiflisdə təşkil edilmişdir?-deyə etirazlarını bildirmişlər.

Sənədlərdən və xatirələrdən aydın olur ki, Bakıda hökumət dairələri mollanəsrəddinçi yazarın yubileyini keçirməkdə tərəddüd edirlər. (Hökumət o zaman "Molla Nəsrəddin"in də yubileyini keçirməmişdi. Həmidə xanımın yazdığına görə, bu laqeyidlik, saymazlıq Mirzə Cəlilin qəlbinə yaman toxunmuşdu - müəl.).

**Bakıda Ə.Haqverdiyevi Azərbaycan Kommunist (b) Partiyasının Mərkəzi Komitəsinin təbliğat şöbəsinə çağırıb deyirlər ki: "Burada qırx sənəliyini gözəl surətdə bayram edərik".**
**Hazırcavab mollanəsrəddinçi də zarafatından qalmayıb bildirir ki: "Mən Allah ilə hələ doqovor bağlamamışam..."**

Bakıda Ə.Haqverdiyevi Azərbaycan Kommunist (b) Partiyasının Mərkəzi Komitəsinin təbliğat şöbəsinə çağırıb deyirlər ki: "Burada qırx sənəliyini gözəl surətdə bayram edərik".

Hazırcavab mollanəsrəddinçi də zarafatından qalmayıb bildirir ki: "Mən Allah ilə hələ doqovor bağlamamışam...".

Bundan sonra Ə.Haqverdiyev yaxın dostu və o zaman Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsində çalışan Əziz Şərifə məktub yazaraq M.F.Axundzadənin yubileyinin keçirilməsini xahiş edir. O, 18 dekabr 1927-ci il tarixli məktubunda yazırdı: "Əziz qardaşım. Bu gələn mart ayının 12-də Mirzə Fətəlinin vəfatından tamam əlli sənə keçir. Mirzə Fətəlinin nəvəsi Fətəlidə babasının arxivi var. O da bu arxivi göz bəbəyi kimi saxlayır. Həm Fətəli ilə görüş, həm də mərkəzdən təşkilati işləri görməyə səy göstər".



**Qərənfil Dünyamin qızı**
**Əməkdar jurnalist**

Ə.Haqverdiyevin sonrakı məktublarından da aydın olur ki, o, Ə.Şərifdən dönə-dönə xahiş edir ki, M.F.Axundzadənin yubileyi Bakıda, Tiflisdə, Şəkidə onun adına layiq keçirilsin. Nəhayət, 12 mart 1928-ci ildə Bakıda M.F.Axundzadənin vəfatının 50 illik yubileyi qeyd edilir.

Ə.Haqverdiyevin Ə.Şərifə yazdığı məktublarda üstüörtülü bildirilir ki, 30-cu illərdə Azərbaycanda baş verən hadisələr onun həm yaradıcılığına, həm də yaşam tərzinə çox pis təsir edir. Amma "yaşamaq üçün" işləməyə məcburdur. "Əziz qardaşım. Fevral ayında mənim ədəbiyyat yolunda bəqədriimkan işləməmin qırx sənəsi tamam olur. Bu münasibətlə güman edirəm ki, mənə Xalq ədibi namını versinlər; o vaxt üç yüz mənata qədər təqaüd almalı oluram. Belə olarsa, sentyabrdan istefa verib, bir guşəyə çəkiləcəm. Bu təqaüd məsələsi baş tutsa, Tiflisə köçüb orada yaşamağa niyyətim var. Daha kifayətdir. Darülfünunda dörd ətrafım cavan müəllimlərdir...".

Deməli, Ə.Haqverdiyev sovetlərin fəxri adını şan-şöhrət üçün deyil, maddi problemini qismən aradan qaldırmaq üçün istəyib. Ə.Şərifin yazdığına görə: "Əbdürrəhim bəy Haqverdiyevdə şöhrətpərəstlikdən bir zərrə də yox idi. Onun son dərəcə təvazökar olduğunu bütün onu tanıyanlar təsdiq edə bilərlər".

"Ədəbi məfkurələrin müxtəlifliyi və ədəbi kriteriyaların dəyişməsi" ilə barışa bilməyən Ə.Haqverdiyevə nə sağlığında bu fəxri adı almaq, nə də ömrünün son illərini istədiyi kimi keçirmək nəsib olur. "Ədəbiyyatımızı bolşevikləşdirmək, onu həqiqi proletar ədəbiyyatı etmək üçün bütün bu yollarda və cəbhələrdə amansız, şiddətli, rəhmsiz bir mübarizə və mücadilə aparmalıyıq" - deyənlər kimi "Olacağam o rəhbərin qapısında süpürgəçi" (Stalinin qapısında - müəl.) olmadığı üçün Şura hökuməti ona qarşı laqeyid və amansız olur. Nəticədə ədib "1933-cü ilin 11 dekabrında stenokardiya xəstəliyindən vəfat edir".

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*